*AMEA Nəsimi adına Dilçilik İnstitutu,*
*Dilçilik araşdırmaları, 2024, №2* *ISSN: 2664-5432*
*Səhifə: 176-183*
*https://doi.org/10.59849/2664-5432.2024.2.176*

**Elvira BABAYEVA***

# İNGİLİS QRAMMATİKASININ TƏŞƏKKÜLÜNDƏ KLASSİK YANAŞMALARIN ROLU

## XÜLASƏ

XIX əsrdə mövcud tarixi şəraitdə bütün dünyada ingilis dilinə marağın artması bu dilin qrammatikasının şərhi ilə bağlı vəziyyəti tamamilə dəyişdirdi. Artıq nəinki ingilis, hətta alman, danimarkalı və s. dilçilər də ingilis qrammatikasını əks etdirən əsərlər yazmaqda maraqlı idilər. Hər kəsin ingilis dilini tez bir zamanda mənimsəmək istədiyi üçün ən əlverişli qrammatikanı axtarması müəlliflərin öz yanaşmalarını irəli sürərkən sələflərinin işini daha diqqətlə təhlil etməsinə, onların buraxdıqları "səhvlərdən" yayınmağa çalışmasına səbəb oldu.

Klassik ingilis qrammatikalarına qədər müəlliflər ingilis dilinin qrammatikasına dair qanunauyğunluqları əks etdirən qaydalar tərtib edərək dil daşıyıcılarından və ya öyrənənlərdən onlara riayət etmələrini tələb edir, bir sözlə preskriptiv yanaşmaya üstünlük verirdilər. Odur ki, bu cür yanaşmanın səmərəsizliyini görən klassik dövrün qrammatistləri məsələyə yeni pəncərədən baxmağa başladılar. Müəlliflər dil daşıyıcılarının istifadə etdiyi dili təhlil edir, qrammatik qaydalara uyğun gələn və ya gəlməyən strukturları müəyyənləşdirir, onların elmi əsasını öyrənərək öz qrammatikalarını buna görə tərtib etməyə çalışırdılar. Məhz bu səbəbdən, ingilis dili qrammatikaları tarixinin klassik dövrünü xarakterizə edən ən bariz xüsusiyyət onların "elmi" xarakter daşımasıdır. Əsərlərini yazarkən ingilis dili qrammatikasını deskriptiv baxımdan təsvirə üstünlük verən Noah Uebster, Uilyam Kobbett, Uilyam Çonsey Fouler, Henri Suit kimi müəlliflərin hər biri həm morfoloji, həm də sintaktik fikir tarixinə bir çox töhfələr verdilər. Beləliklə, bu müəlliflər klassik dövrün ingilis dili qrammatikasının təşəkkülündə dönüş nöqtəsinə çevrilməsinə səbəb oldular.

**Açar sözlər:** *klassik qrammatikalar, morfologiya, sintaksis, təsnifat, taksonomiya, nitq hissələri.*

XIX əsr klassik qrammatikaları müasir ingilis dili qrammatikasının təşəkkülündə aparıcı rol oynamışdır. Bu əsərlərin yazıldığı dövrdə mövcud tarixi şərait və onlara qoyulan tələblər qrammatistlərin novatorluq fəaliyyətini genişləndirmişdir. İngiltərənin işğal etdiyi ərazilərdə təsir dairəsi hər gün daha da genişlənən müstəmləkəçilik siyasəti dil məsələsindən də yan keçməmişdir. Odur ki, ingilis dilinin zorla ünsiyyət vasitəsi kimi tətbiq edildiyi yerlərə siyasi, sosial və iqtisadi maraqların artması insanları bu dili öyrənməyə, nəticə etibarilə, ən səmərəli qrammatikanı tapmağa sövq etmişdir. Məhz bu səbəbdən dolayı, bu dövrdə ingilis qrammatikası təkcə milliyyətcə ingilis olan dilçilər deyil, başqa millətlərdən olan qrammatistlərin də marağını cəlb etmişdir.

* AMEA Nəsimi adına Dilçilik İnstitutu, Hind-Avropa dilləri şöbəsinin doktorantı, AİA, Sosial elmlər kafedrasının müəllimi. Email: elvira.a.babayeva@gmail.com

Klassik ingilis qrammatikalarının bir digər özünəməxsusluğu onların deskriptiv xarakter daşımasında idi. Dövrün müəllifləri dilin qrammatikasını təsvir edərkən "bələdçi" hazırlamaq istəmirdilər. [Bax: 10.] Onların əsas məqsədi dil daşıyıcılarının real ünsiyyət dilini əks etdirən bir əsər ərsəyə gətirmək idi. Odur ki, sözügedən dövrdə ünsiyyət zamanı istifadə olunan bütün qrammatik vahidlər təhlil edilir, hətta mövcud qrammatik qaydalara uyğun gəlməyən strukturlar belə araşdırılır, elmi baxımdan şərh edilirdi.

XIX əsrin ən əhəmiyyətli qrammatikalarından "*İngilis dilinin qrammatik institutu*" əsərinə görə adı ən görkəmli qrammatistlər arasında çəkilən Noah Uebster qrammatika haqqında yazır: "Qrammatika fikri nitqə çevirmə sənətidir. O, dilin özünəməxsus prinsiplərini dərk etmək üçün bir alətdir." [Webster: 1800, s.7] Amerikada ingilis dilinin tədrisi üçün bir çox uğurlu işlər görən N.Uebsterin qrammatika, onun bölmələrini əhatə edən ayrı-ayrı linqvistik məsələlərlə bağlı fikir və mülahizələri olduqca dəyərlidir. N.Uebsterə görə qrammatikanın əsas hədəfi hərflərin birləşərək hecalar, hecaların sözlər, sözlərin isə öz növbəsində söyləm və ya cümlələr yaratması ilə bağlı qanunauyğunluqları əks etdirməkdir. Morfologiya bəhsindən söz edərkən o, nitq hissələrinin 6 növünü qeyd etmişdir: isim, əvəzlik, sifət, feil, artikl, hissəcik.

N.Uebster isimləri izah edərkən *hal, cins, kəmiyyət* kateqoriyalarını ayrı-ayrılıqda şərh etmiş, onlara sistemli şəkildə tərtib olunan nümunələr vermişdir. [Bax: 9.] Nitq hissələri ilə bağlı taksonomiyada artiklı ayrıca qeyd etsə də, onun izahını isim bölməsi daxilində vermiş, bu nitq hissəsinin müəyyənlik və qeyri-müəyyənlik bildirən növlərini və müvafiq xüsusiyyətlərini əks etdirmişdir.

Nitq hissələri ilə bağlı təsnifatın növbəti komponenti kimi göstərilən əvəzlik barədə yanaşması ilə N.Uebsterin müasir ingilis dilinə əhəmiyyətli töhfə verən müəlliflərdən olduğunu görürük. Belə ki, o, bu nitq hissəsi ilə bağlı fikirlərini tam sistemləşdirməyə müvəffəq olmasa da, əvəzliyin ayrı-ayrı növləri ilə bağlı izahları ilə müasir ingilis dilində yer alan qanunauyğunluqlara çox yaxınlaşmışdır. İsmi əvəz edən əvəzliklərin ismi qrammatik kateqoriyalara görə necə dəyişə bildiyini göstərən müəllif sintaktik funksiyasına görə fərqlənən yiyəlik əvəzliklərini sifət hesab etmişdir. Əvəzlikdən sifətə bu şəkildə keçid edən N.Uebster müqayisə dərəcələrini də fərqləndirmişdir. Lakin bu qrammatikada adi, müqayisə və üstünlük dərəcələrinin sadəcə adları qeyd olunmuş və bir neçə misallar göstərilmişdir.

Əksər qrammatikalarda olduğu kimi feil digər nitq hissələri ilə müqayisədə daha təfərrüatlı təsnif olunmuşdur. Feilin şəxsə, zamana, kəmiyyətə və şəklə görə dəyişməsi, modal və köməkçi feillər, təsriflənməyən feil formaları N.Uebster qrammatikasında nümunələrlə izah olunmuşdur.

N.Uebsterin nitq hissələri ilə bağlı təsnifatının sonuncu pilləsində dayanan *hissəcik* müəllif tərəfindən həm də *abreviatur* adlandırılmışdır. Müəllifə görə hissəciyin əsas funksiyası sözləri və cümlələri bir-birinə bağlayaraq onlar arasında əlaqə yaratmaqdır. Müasir ingilis dilində sözönü, bağlayıcı, zərf kimi qəbul edilən

sözlər bu qrammatikada ümumi başlıq altında birləşdirilmiş və *hissəcik* hesab edilmişdir. Bununla belə, zərf, sözönü və bağlayıcılar ayrı-ayrılıqda da təsnif edilmiş, onlara müvafiq misallar göstərilmişdir.

N.Uebsterin morfoloji fikirləri nidanın təsnifi ilə tamamlanır. O, nidanı ayrıca bir nitq hissəsi kimi qrammatikanın əvvəlində verilən təsnifatda əks etdirməsə də, nitq hissələri ilə bağlı fikirlərinin sonunda, qısa da olsa, ondan söz etmişdir.

Təəssüf ki, bu qrammatikada sintaksisə morfologiya qədər geniş yer verilməmiş, bu bölmə olduqca məhdud şəkildə təsvir edilmişdir. Cümləni sözlərin tamamlanmış bir məzmun bildirmək üçün müəyyən qaydalara əsasən düzülüşü hesab edən müəllif cümlə quruluşu barədə yazır: "Cümlənin quruluşu uzlaşma və idarə əlaqələrindən asılıdır." [Webster: 1800, s.28]

Sintaksisə qısa şəkildə nəzər yetirən N.Uebster qrammatikasının qalan hissəsini nitq hissələrini təşkil edən sözlərin ayrı-ayrılıqda şərhinə ayırmışdır.

XIX əsrin görkəmli qrammatistlərindən olan Uilyam Kobbettin "*İngilis dilinin qrammatikası, məktublar silsiləsində*" əsəri orijinal tərtibatı ilə yanaşı, elmi əhəmiyyətinə görə də fərqlənir. İngilis dilinin deskriptiv təsvirini əks etdirən bu qrammatika yazıldığı dövrdə ən çox istifadə olunan praktik vəsaitlərdən biri olmuşdur. Qrammatikanın adından da göründüyü kimi burada morfologiya və sintaksisə dair məsələlər ayrı-ayrı "məktublar" kimi təqdim edilmişdir. U.Kobbettin qrammatikasında nəzəri fikirlərin təsvirinə daha çox yer verilmiş, qrammatik məsələlərin praktik izahı diqqətdən kənarda qalmışdır.

Nitq hissələrinin hər birini ayrı-ayrı məktublarda gözdən keçirən U.Kobbett onları 9 yerə ayırmışdır: isim, sifət, əvəzlik, artikl, feil, zərf, bağlayıcı, sözönü və nida. Müəllif morfologiyanı izaha artilla başlayıb, ingilis dilində *a, an* və *the* olmaqla üç artikl olduğunu qeyd edir. O, artikl haqqında yazır: "Artikllar müəyyənlik və qeyri-müəyyənlik bildirən növlərə ayrılır. *A* və *an* eyni artiklın iki fərqli təzahür formasıdır." [Cobbett: 1820, s.19]

Əksər qrammatika müəlliflərindən fərqli olaraq U.Kobbett ismi artikldan sonra təsvir etmişdir. İsim haqqında danışarkən o, bu nitq hissəsinin qollara ayrıldığını, hallara, cinsə və kəmiyyətə görə fərqləndiyini qeyd edir. U.Kobbett qrammatikasında ismin qolları deyərkən *ümumi* və *xüsusi isimlər* nəzərdə tutulmuşdur. İsmi qrammatik kateqoriyalar bu qrammatikada ən müfəssəl əks etdirilən məsələlərdəndir. Məsələn, müəllif kəmiyyət kateqoriyasından söz açarkən müxtəlif qrammatik mənalara malik isimlərin necə cəmləndiyi sistemləşdirilmiş şəkildə əks etdirmişdir. Lakin cins kateqoriyasında U.Kobbettin məzmununda cins anlayışı olmayan sözləri də cinslərə görə qruplara ayırdığını görə bilirik. [Bax: 6.]

İsimdən sonra əvəzlik bəhsinə yer verən müəllif burada şəxs, işarə, nisbi və qeyri-müəyyən əvəzlikləri fərqləndirmişdir. İngilis dilində isimlərin yerini ifadə etmək üçün istifadə olunan "there is/are" konstruksiyası U.Kobbett qrammatikasında məhz əvəzlik bəhsinin daxilində izah edilmişdir.

Sifəti və onun müqayisə dərəcələrinə görə dəyişməsini qeyd edib, bu mövzuya qismən kiçik yer ayıran U.Kobbett daha müfəssəl şərhi feilin izahında

nümayiş etdirmişdir. Feili qrammatik kateqoriyaları ayrı-ayrılıqda təhlil edən müəllif bu nitq hissəsinə dair bir çox məsələlərə toxunmağa müyəssər olmuş, müvafiq misallar, qaydasız feillərin siyahısını verməklə öz qrammatikasının bu bölməsini daha da əhəmiyyətli mənbə halına gətirmişdir. U.Kobbett qrammatikasında feilin 3 növü (*active, passive, neutral*), 4 şəkli (*infinitive, indicative, imperative, subjunctive*) fərqləndirilmişdir.

Təsnifatda yer alan digər nitq hissələri haqqında olduqca məhdud məlumatlar verilmiş, yalnızca zərfin məna növləri (*time, place, order, quality, manner*) qısa şəkildə də olsa izah edilmişdir.

Müəllifin sintaksis üçün ayırdığı bölmədə yenidən nitq hissələri gözdən keçirilmişdir. Sözlərin funksiyasına görə təhlil edildiyi bu şərh əsərin praktik əhəmiyyətini artırsa da, müasir sintaktik fikirlərin tarixini araşdırmaq baxımından onu səmərəsiz edir.

XIX əsr klassik dövrün digər bir nümayəndəsi olan Uilyam Çonsey Fouler "*İngilis dilinin qrammatikası*" əsəri ilə müasir ingilis qrammatikasının formalaşmasında əhəmiyyətli rol oynayan müəlliflərdəndir. Bu qrammatikada ingilis dilinin morfologiya və sintaksisi ilə yanaşı fonetika, leksikologiya və etimologiyası da nəzərdən keçirilmişdir.

Əksər qrammatik əsərlərdə olduğu kimi U.Ç.Foulerin də morfoloji fikirlərinin təsviri isimlə başlayır. Burada ismin ən mühüm xüsusiyyətləri – qrammatik kateqoriyaları, mənaca növləri göstərilmiş, qismən də olsa, struktur xüsusiyyətləri təhlil edilmişdir. İsimdən sonra sifəti gözdən keçirən U.Ç.Fouler sələflərinin fikrinə əlavə olaraq bu nitq hissəsini təşkil edən sözləri həm də *təsviredici* və *təyinedici* funksiyalarına görə qruplara ayırmışdır. [Bax: 7.] Maraqlıdır ki, sifətdən sonra say və artiklı izah edən müəllifin morfoloji taksonomiyasında bu nitq hissələri yer almamışdır. Qeyd olunan nitq hissələrinin ardınca əvəzliyi etimoloji baxımdan təhlil edən U.Ç.Fouler onun altı növü olduğu qeyd edir: şəxs, işarə, sifət və zərf təbiətli, sual və nisbi.

U.Ç.Fouler morfologiyanın ən geniş bölməsi olan feili bütün təfərrüatları ilə izah etməyə çalışmışdır. O, feilin 6 zaman formasını ayırd etmiş, modal feilləri xüsusi başlıq altında – *potensial feil şəkli* kimi təqdim etmişdir. [Fowler: 1868, s.312] Köməkçi feillər, feilin təsriflənməyən formaları və s. kimi məsələlər də müəllifin nəzərindən yayınmamışdır.

Nitq hissələri ilə bağlı bu qrammatikada yer alan növbəti mövzular zərf, bağlayıcı, sözönü və nida olmuşdur. U.Ç.Fouler bu nitq hissələrinin şərhinə olduqca məhdud yer ayırsa da, onların mənaca növlərini qısa şəkildə təqdim etmiş, bağlayıcının mənaca *birləşdirmə* və *bölüşdürmə*, zərfin isə *zaman, yer, dərəcə, kəmiyyət* və *tərzi-hərəkət* növlərini ayırd etmişdir. Qeyd etmək lazımdır ki, ilk dəfə məhz U.Ç.Fouler qrammatikasında nida mövzusu əvvəlki qrammatikalardan fərqli olaraq digər nitq hissələri kimi müfəssəl şəkildə verilmiş izahlar və nümunələrlə təsvir olunmuşdur.

U.Ç.Foulerin sintaktik fikirləri iki istiqamətdə əks etdirilmişdir. Onun qrammatikasında sintaksis həm sələflərində gördüyümüz şəkildə, nitq hissələrinin funksional xüsusiyyətlərinin təhlil edilməsi ilə, həm də müasir qrammatikaların əksəriyyətində olduğu kimi sintaktik vahidlərin izahı ilə təsvir edilmişdir. U.Ç.Fouler sintaksisin əsas vahidlərindən biri olan cümləni həm quruluşuna (*sadə* və *mürəkkəb*), həm də məqsəd və intonasiyasına görə (*nəqli, sual, əmr, optativ*) müxtəlif qruplara ayırmışdır. İkinci bölgüdən sonra müəllif öz növbəsində sual cümlələrinin də ayrıca taksonomik izahını vermişdir. Qeyd edək ki, sintaksislə bağlı şərhlərin ikinci yarısında cümlə ilə bağlı əks etdirilən fikirlərin müasir ingilis dilinə olduqca yaxın olması, müəllifin bu dilə dair qrammatik fikirlərin təşəkkülündə oynadığı mühüm rola dəlalət edir.

"*Yeni İngilis dili qrammatikası*" ilə adından hər zaman söz etdirən Henri Suit klassik dövrün bütün tələblərini ödəyən bir əsər yazmış, yaşadığı dövrdə qrammatikaya qoyulan tələbləri kitabının önsözündə göstərərək deskriptiv istiqamət izlədiyini bildirmişdir.

H.Suit nitq hissələrini iki yerə ayırmışdır: *təsriflənən* və *təsriflənməyən*. [Yunusov: 2012, s.180] Bu qrammatikada *isim, sifət* və *feil* təsriflənən, *zərf, sözönü, bağlayıcı* və *nida* isə təsriflənməyən nitq hissələri hesab olunur. H.Suit öz elmi töhfəsi ilə qrammatikanı, xüsusilə də morfologiyanı bir üst səviyyəyə qaldırmışdır. Əsərdə bütün ismi və feili qrammatik kateqoriyalar təfərrüatlı şəkildə izah olunmuşdur. H.Suit isimləri kəmiyyətinə görə 3, cinsinə görə 3, hallanmasına görə isə 7 qrupa ayırmışdır. Sifət barədə ənənəvi fikirləri təkrarlayan müəllif öz taksonomiyasının növbəti pilləsində dayanan əvəzliklərə daha çox diqqət yetirmişdir. H.Suit əvəzliyin bu növlərini fərqləndirmişdir: şəxs, yiyəlik, qayıdış, qarşılıq, emfatik, inkar, sual, kəmiyyət əvəzlikləri. [Sweet: 1892, s.73] Bu bölmədə müəllif nisbi və bağlayıcı əvəzliklərin ortaq və fərqli xüsusiyyətlərinin təhlilinə xüsusi diqqət yetirmişdir.

Müasir ingilis qrammatikasında feilin inkişaf tarixini araşdırarkən nəzərdən keçirilməli yanaşmalardan biri də elə məhz H.Suitə məxsusdur. Feilin şəxs, zaman, kəmiyyət, növ və şəkil qrammatik kateqoriyaları ilə yanaşı, o, modal feilləri və feilin təsriflənməyən formalarını da gözdən keçirmişdir. Məsdər, cerund və feili sifətin şərhinə əvvəlki qrammatikalara nəzərən daha geniş yer verilmişdir.

H.Suitin qrammatikasını əvvəlki yanaşmalardan fərqləndirən bir məqam da zərfin şərhi ilə bağlıdır. Belə ki, o, bu nitq hissəsini həm struktur, həm də semantik baxımdan təhlil etmişdir. Ənənəvi təsnifata qismən sadiq qalaraq və özündən əvvəl deyilmiş fikirləri ümumiləşdirərək H.Suit zərfin 7 məna növünü ayırd etmişdir: *yer, zaman, kəmiyyət, tərzi-hərəkət, səbəb, ardıcıllıq, təsdiq* zərfləri. [Bax: 8.] O, təsriflənməyən nitq hissələrindən zərfə geniş yer versə də, sözönü və bağlayıcını eyni prizmadan qiymətləndirmiş, onları quruluşuna və mənşəyinə görə təsnifləndirmişdir. Öz təsnifatının sonuncu komponenti olan nidaları isə əsas və ikinci dərəcəli olmaqla iki qrupa ayırmışdır.

Klassik dövrün ən dəyərli əsərlərindən birini yazan H.Suit sintaksisi də diqqətdən kənarda saxlamamış, onun praktik təsvirinə daha çox önəm vermişdir. Digər müəlliflərdən fərqli olaraq o, sintaksisin hər iki vahidini – həm söz birləşmələrini, həm də cümlələri təhlil etmişdir. Onun söz birləşməsi ilə bağlı fikirləri geniş olmasa da, yeni istiqamətə başlanğıc verdiyi üçün mütləq qeyd edilməlidir. Söz birləşməsindən fərqli olaraq H.Suit cümləni daha geniş bir məcradan təhlil etmiş, onu həm struktur, həm də məqsəd və intonasiyaya görə fərqləndirmişdir. Müəllifin bu istiqamətdəki yanaşmalarının müasir ingilis dili ilə yaxından səsləşməsi onun qrammatikanın inkişafında oynadığı roldan xəbər verir.

Müasir ingilis qrammatikasını tarixi aspektdən gözdən keçirərkən klassik qrammatikaların hər birinin önəmlə təhlil edilməsi təsadüfi bir tələb deyil. Ayrı-ayrı dövrlərin təhlili göstərir ki, müasir qrammatikanın formalaşmasında ən böyük rolu məhz bu dövrün nümayəndələri oynamışdır. Belə ki, ilk ingilis qrammatikalarının latın modelli olması, onlardan sonra hazırlanan preskriptiv əsərlərin yazılma dili və üslubu dəyişsə də əvvəlki nümunələrin zəif istiqaməti nəticəsində elə də böyük yol qət edə bilməməsi onların klassik dövr qrammatikalarından geridə qalmasına səbəb olmuşdur. Klassik dövrdə qrammatistlərin dilin ünsiyyət məqamında özünü göstərən həqiqi xüsusiyyətlərinə önəm verməsi, onların elmi izahının təqdim olunması olduqca əlamətdar hadisə idi. Bu cür əsərlərin yazılması sonrakı dövrdə daha da təkmilləşmiş yanaşmaların irəli sürülməsi üçün zəmin rolunu oynadı.

Beləliklə, digər tarixi dövrlərə nəzərən müasir ingilis qrammatikasına daha çox töhfə verdiyi, onun formalaşmasında və təkmilləşməsində daha böyük rol oynadığı üçün klassik dövr qrammatik nəzəriyyələrinin təhlili və şərhi olduqca əhəmiyyətlidir.

## ƏDƏBİYYAT


1. Yunusov D. Müqayisəli tipologiya. Bakı: Mütərcim, 2012. – 180 s.
2. Cobbett W. A Grammar of the English Language, in a series of letters.London, 1820, 186 s.
3. Fowler W.Ch. English Grammar. New York: Harper & Brothers Publishers, 1868, 796 s.
4. Sweet H. A New English Grammar, Logical and Historical. Oxford: The Clarendon Press, 1892, 499 s.
5. Webster N. A Grammatical Institute of the English Language. Boston, 1800, 116 s.
6. https://archive.org/details/englishgrammarof00cobb/page/132/mode/2up
7. https://archive.org/details/englishgrammare00fowlgoog/page/n310/mode/2up
8. https://archive.org/details/newenglishgramma02sweeuoft/page/54/mode/2up
9. https://books.google.az/books?id=o6MSAAAAIAAJ&printsec=frontcover&redir_esc=y#v=onepage&q&f=false
10. https://lawbooks.news/grammatika_948/classical-scientific-grammar-52815.html

## THE ROLE OF CLASSICAL APPROACHES IN THE FORMATION OF ENGLISH GRAMMAR

### SUMMARY

In the 19th century, under the existing historical conditions, the increase in interest in the English language throughout the world completely changed the situation regarding the interpretation of the grammar of this language. Not only English, but also German, Danish, etc. linguists were also interested in writing works reflecting English grammar. Since everyone wants to master the English language quickly, the search for the most convenient grammar has led the authors to analyze the works of their predecessors more carefully when proposing their own approach, and to try to avoid the "mistakes" they made.

Before the classical English grammars, authors formulated rules reflecting the regularities of English grammar and required speakers or learners to follow them, in short, they preferred a prescriptive approach. Therefore, seeing the ineffectiveness of such an approach, the grammarians of the classical period began to look at the issue from a new window. The authors analyzed the language used by the speakers, determined the structures that conformed to the grammatical rules or did not, studied their scientific basis and tried to design their grammar accordingly. For this reason, the most obvious feature that characterizes the classical period of the history of English grammars is their "scientific" character. Authors such as Noah Webster, William Cobbett, William Chauncey Fowler, and Henry Sweet, who prefer to describe English grammar from a descriptive point of view while writing their works, made many contributions to the history of both morphological and syntactic ideas. Consequently, they caused the classical period to become a turning point in the formation of English grammar.

**Keywords:** classical grammars, morphology, syntax, classification, taxonomy, parts of speech.

## РОЛЬ КЛАССИЧЕСКИХ ПОДХОДОВ В ФОРМИРОВАНИИ ГРАММАТИКИ АНГЛИЙСКОГО ЯЗЫКА

### РЕЗЮМЕ

В XIX веке в сложившихся исторических условиях рост интереса к английскому языку во всем мире полностью изменил ситуацию с интерпретацией грамматики этого языка. Не только английские, но и немецкие, датские и др. лингвисты также были заинтересованы в написании работ, отражающих английскую грамматику. Поскольку каждый хочет быстро освоить английский язык, поиск наиболее удобной грамматики заставил авторов более тщательно анализировать работы своих предшественников при предложении собственного подхода и стараться избегать допущенных ими «ошибок».

До появления классической английской грамматики авторы формулировали правила, отражающие закономерности английской грамматики, и требовали от носителей или учащихся следовать им, короче говоря, они предпочитали предписывающий подход. Поэтому, видя неэффективность такого подхода, грамматисты классического периода стали смотреть на вопрос из нового окна. Авторы проанализировали язык, которым пользовались носители, определили структуры, которые соответствуют или не соответствуют грамматическим правилам, изучили их научную основу и попытались соответствующим образом спроектировать свою грамматику. По этой причине наиболее очевидной чертой, характеризующей классический период истории английских грамматик, является их «научный» характер. Такие авторы, как Ной Вебстер, Уильям Коббетт, Уильям Чонси Фаулер и Генри Свит, предпочитающие описательную английскую грамматику при написании своих работ, каждый внес большой вклад в историю как морфологической, так и синтаксической мысли. Таким образом, эти авторы сделали классический период поворотным в формировании английской грамматики.

**Ключевые слова:** классические грамматики, морфология, синтаксис, классификация, систематика, части речи.